***Lerik rayonunda, zümrüd meşələrin əhatəsində cənnəti xatırladan Bibihoni kəndində sadə kəndli həyatı yaşayan Qəhrəman Həşimovun ailəsində 1989-cu il aprelin 13-də bir oğlan uşağı dünyaya gəlir. Aylar keçir, illər dolanır, adını Tərzan qoyduqları körpə Azərbaycanın narahat günlərindən, ermənilərin Qarabağda törətdikləri vəhşiliklərdən xəbərsiz, ata-ana qayğısı ilə bəxtəvər uşaqlığını yaşaya-yaşaya böyüyür. 1992-ci ilin sonlarına yaxın cəbhədə vəziyyət ağırlaşanda bir çox həmvətənləri kimi atası Qəhrəman Həşimov da 4 yaşlı Tərzanı və ailənin digər üzvlərini həyat yoldaşı Gülçöhrə xanıma əmanət edib könüllü cəbhəyə yollanır. Müharibə atəşkəslə bitir. Amma torpaqlar erməni işğalında qalır. Qəhrəman kişi isə: “Demək, müharibə hələ bitməyib, savaş nə vaxtsa, mütləq yenidən başlayacaq” – deyə, düşünür. Amma gözlənilən o müharibəni onun oğlu Tərzan kimi yüzlərlə Azərbaycan əsgər və zabitinin aparacağını, xilaskarlıq missiyasını onların yerinə yetirəcəklərini ağlına belə gətirmir…***

# Şöhrətin əbədiyyət zirvəsində



…2006-cı ildə orta təhsilini başa vurandan sonra ali məktəbə daxil ola bilməyən Tərzan 2007-ci ilin martında həqiqi hərbi xidmətə yola düşür. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Gəncə şəhərində yerləşən “N” saylı hərbi hissəsində xidmət edir. 2008-ci ilin oktyabrında hərbi xidmətini başa vurub evə qayıdır və bir müddət kənddə qalır. Sonra isə hərbçi olmaq qərarına gəlir.

Beləliklə, Tərzan 2009-cu ildə Müdafiə Nazirliyinin 6 aylıq gizir hazırlığı kursuna qəbul edilir, 2010-cu ilin martında kursu uğurla bitirib gizir rütbəsi alır. Əvvəlcə Gəncə şəhərində, sonra isə Goranboy rayonunda yerləşən “N” saylı hərbi hissədə motoatıcı tağımın komandirinin müavini vəzifəsində xidmətə başlayır. Tərzan 2010-cu ilin dekabrından çoxdan arzusunda olduğu Xüsusi Təyinatlı Qüvvələrin təlim kursuna cəlb edilir. Gərgin və çətin təlimləri uğurla keçib kursu bitirəndən sonra erməni dilini mükəmməl öyrəndiyindən rabitəçi kimi fəaliyyət göstərir.

Tərzanın hərbçi peşəsini öz həyatının əsas qayəsinə çevirməsi, daim döyüş bacarıqlarını təkmilləşdirməsi, silah növlərinin hər biri ilə yüksək səviyyədə davranması komandirlərin diqqətindən yayınmır. Buna görə də 2011-ci ilin iyun ayında Xüsusi Təyinatlı Qüvvələr qrupunda kəşfiyyatçı vəzifəsinə təyin edilir. 2014-cü ildən isə XTQ-nin “N” saylı hərbi hissənin xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifəsində çalışmağa başlayır.

Milli Ordumuz 2016-cı ilin aprelində ildırım sürətli əks-hücumla düşmənə ağır zərbə vurub, bir çox strateji yüksəklikləri ələ keçirəndə, Azərbaycan əsgərinin torpaqların azad edilməsinə tam hazır olması da öz təsdiqini tapdı. Bu döyüşlərdə Silahlı Qüvvələrimizin bir çox zabit və əsgəri kimi, gizir Tərzan Həşimov da uğurla sınaqdan çıxdı.

Bu hünər, fədakarlıq təsadüf deyildi. Gizir Tərzan Həşimov hərbidə olduğu az bir müddətdə nümunəvi xidmətinə və nümayiş etdirdiyi yüksək döyüş hazırlığına görə dəfələrlə komandanlığın fəxri fərmanları və təşəkkürləri ilə mükafatlandırılmış, III dərəcəli “Qüsursuz xidmətə görə”, “Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi” və “Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi” yubiley medalları ilə təltif edilmişdi.

...2020-ci ilin payızı yaxınlaşırdı. Cəbhə xəttində vəziyyət yenə gərginləşmişdi. Gizir Tərzan Həşimov və hərbçi yoldaşları döyüş hazırlığı vəziyyətinə gətirilmişdilər. Vətən üçün görəcəkləri işlərin artıq vaxtı çatmışdı. Son təlimlər zamanı da onlara məxfi məlumat verilmişdi ki, bütün “körpüləri yandıran” düşmənə layiqli cavab vermək zamanı yetişib. Bütün şəxsi heyət sanki həyatlarında ən şad xəbəri almışdılar.

…Gizir Tərzan Həşimov Vətən müharibəsinin üçüncü günü Füzuli uğrunda gedən döyüşlərin birində yaralanır. Yaraları çox ağır olmasa da, komandanlıq onun hospitala təxliyyə edilməsinə əmr verir. “Hospitalda ona baş çəkməyə getdim, – deyə, qardaşı Tərlan danışır, – Məndən xahiş etdi ki, burada olduğunu heç kimə deməyim. “Yaram ağır deyil, bir balaca düzələn kimi döyüşə qayıdacağam”, – dedi. İsrarla bildirdim ki, bir-iki gün qal, sağalıb gedərsən. Sözüm xətrinə bərk dəydi və mənə acığı tutdu: “Dostlarım orda döyüşüb qan tökür, deyirsən, “sən burda uzan, sağalıb gedərsən”. Nə olub, yüngülcə yaralanmışam, indi də sap-sağlamam”. Beləcə, yaraları sağalmamış döyüşlərə qayıtdı...”.

Düşmən Cəbrayıl şəhərinin girişində çox ciddi müqavimət göstərirdi. Ermənistan ordusunun hərbi hissələrindən biri bu sahədə yerləşirdi. Oktyabrın 2-də gecə həmin ərazidəki transilasiya dirəyi olan mövqeyə hücum edildi və ayın 4-də ora düşməndən tamamilə təmizləndi.

Gizir Həşimovla son tapşırıqda bir yerdə vuruşmuş xüsusi təyinatlı döyüşçü həmin günü belə xatırlayır: “Füzulidə hücum tapşırığı almışdıq. Qarşıdakı düşmən mövqeyini tez bir zamanda ələ keçirməli idik. Əməliyyat başladı. Az bir vaxtda düşmənin xeyli canlı qüvvəsini məhv edib onların yerləşdiyi səngəri aldıq. Səngərdə düşmənin “Kalaşnikov” əl pulemyotu var idi. Tərzan onu qaldırıb başladı canını götürüb qaçan düşmən əsgərlərinin arxasınca aramsız atəş açmağa. Bu məqamda gözləmədiyimiz halda çoxlu sayda düşmən qüvvəsi bizi sağ və sol cinahdan mühasirəyə almağa başladı. Vəziyyəti gərginləşdirən onların snayperinin naməlum yerdən bizim döyüşçüləri hədəfə alıb atəş açması idi. Nə qədər göz gəzdirib müşahidə apardıqsa, snayperin yerini müəyyənləşdirə bilmədik. Bu məqamda Tərzan pulemyotu götürüb bizim üst tərəfimizdəki hündür təpəyə qalxdı və qövsvari aramsız atəş açmağa başladı. Düşünürdü, bəlkə güllə snaypera dəyər, atəşi dayandırar. Atəş açıb qurtarandan sonra, çönüb səngərə enmək istəyirdi. Bu məqamda snayper atəş açdı və nəticədə güllə onun çiynindən dəyib, onurğa hissəsindən çıxdı. Dərhal yaxınlaşıb kömək etməyə başladıq. Bizə ərklə qışqırdı: “Məni buraxın, döyüşün, durmayın, gedin irəli... . Mən onsuz şəhid olacağam”. Dedik, nə danışırsan, səni burda saxlamarıq...”.

Tərzanı çətinliklə də olsa, təxliyə etdikdən sonra qrup bir müddət orda qalıb döyüşür. Düşmənin canlı qüvvəsini sıradan çıxara-çıxara xüsusi təyinatlılar öz mövqelərinə doğru geri çəkilməyi bacarırlar. Onlar artıq öz bölmələrinin yerləşdiyi əraziyə daxil olanda dostları məlumat verirlər ki, Tərzan şəhid olub.

Xüsusi Təyinatlı Qüvvələrin şəhid giziri Tərzan Qəhrəman oğlu Həşimov Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən yüksək dövlət mükafatlarına layiq görülüb, “Vətən uğrunda”, “Cəsur döyüşçü”, “Cəbrayılın azad olunmasına görə” və “Xocavəndin azad olunmasına görə” medalları və “Azərbaycan bayrağı” ordeni ilə təltif edilib.

***İlqar RÜSTƏMOV,***
***“Xalq qəzeti”***